

# Sosial-iqtisadi inkişafın sürətlənməsində kənd turizminin yeri və rolu

**Ölkədə turizmin belə potensiala malik olması onun ayrı - ayrı növlərinin də inkişafına səbəb olur. Belə ki, bu potensialdan səmərəli istifadə olunması dövlət büdcəsinə daxil olan gəlirlərin həcminin artırılmasına, eyni zamanda regionlarda əhalinin rifah halının yüksəlməsinə səbəb ola bilər.**

Bu baxımdan Azərbaycanın zəngin və rəngarəng təbii resursları, bütün il boyu xaricdən qəbul edilən turistlər üçün əlverişli iqlim şəraiti, çoxsaylı nadir tarixi memarlıq abidələri və onların çoxəsrlik tarixə malik olması, əksər kəndlərin dağlıq ərazilərdə yerləşməsi turizmin bir qolu olan kənd yaşıl turizminin də inkişaf etməsinə çox əlverişli şərait yaradır. Beləliklə, turizmin bir növü olan kənd yaşıl turizminin yaranma tarixinə qısaca da olsa nəzər salaq. Ümumiyyətlə, turizmin bu növü keçən əsrin 70 - ci illərində meydana gəlmişdir. Belə ki, həmin dövrdə bir çox böyük şəhərlərdə ekologiya problemi barədə həyəcan siqnalı çalınmağa başladı. Həmin şəhərlərdə yaşayan insanların təbiətlə təmasda olma, təmiz hava almaq, həmçinin təbiətin sakitliyinə və təbii qida məhsullarına ehtiyac duyuldu. Digər tərəfdən ekologiya probleminin dünya əhəmiyyətli beynəlxalq təşkilatlar tərəfindən qloballaşdırılması, bu problemlərin həllinə yönəlmiş mübarizə metodları və vasitələri turizmin müxtəlif növlərinin inkişafına yeni təkan verirdi. İndiki dövrdə turizmin bu növü kənd yerlərinə və digər görməli yerlərə turistlərin axını üçün önəmli rol oynayır. Bu sahədə Avropanın bir sıra ölkələri - İtaliya, Fransa, İrlandiya və s. öndə gedən ölkələrdəndir.

Ümumdünya Turizm Təşkilatının verdiyi məlumata əsasən İtaliyada turizmin bu növündən 1999 - cu ildə bu sahə üzrə xidmət göstərən 10 min təsərrüfatdan 350 milyon dollardan çox gəlir əldə edildiyi bildirilir. Turizmin bu fəaliyyət növünün başlanğıc mərhələsində İtaliyada turistlərin yerləşdirilməsi, fermerlərin gündəlik gördüyü işlərin xüsusiyyətlərinə uyğun olmayan fəaliyyət növü he-

sab olunurdu. Ona görə də hökumətdə fermerlərin iqtisadi - maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün böyük investisiyaların lazım olduğunu düşünürdülər. Lakin, belə turist məhsuluna olan tələbat hökuməti kənd turizminin konsepsiyasının kökündən dəyişməsinə vadar etdi. Nəticədə bu adi məşğuliyyət növü bir çox kənd sakinlərinin əsas fəaliyyətinə çevrilmiş oldu.

Onu da qeyd etmək lazımdır ki, Avropada kənd yaşıl turizminin inkişaf etməsinə turizmin bu növünə olan tələbat təkan verməmişdir. Ümumiyyətlə, bu gün Avropanın bir sıra ölkələrində - Macarıstan, Çexiya, İngiltərə və xüsusilə də İtaliyadakı təcrübənin digər ölkələrdə tətbiq olunması əhalinin işsizliyinin qarşısını almaq üçün ən əlverişli vasitədir. Bu eyni zamanda kənd yerlərində istehsal olunan məhsulların turistlər tərəfindən mənimsənilməsinə şərait yaradır.

İnkişaf etməkdə olan ölkələrdə olduğu kimi respublikamızda da vəziyyət başqa cürdür. Belə ki, regionlarda işsizliyin yüksək həddi, kənd təsərrüfatının istənilən səviyyədə inkişaf etməməsi, hələ də bu sahənin formalaşmasına və inkişaf etməsinə səbəb olmur. Kənd turizmi dedikdə heç də turistlərin kənd əhalisinin evlərində və yaxud digər vəziyyətdə qalması demək deyil. Burada əsasən bir - birilə qarşılıqlı əlaqəsi olan, müvafiq qaydalara uyğun idarəçilikdən söhbət gedir. Buna görə də vahid infrastrukturdan ibarət olan kənd turizmi aşağıda göstərilən funksiyalardan ibarətdir:

- yaşayış məntəqələri arasında əlaqə yaradan nəqliyyat qovşağı;
- turistlərin daha mənalı dincəlməsi, istirahət etməsi üçün əyləncə və istirahət yerlərinin təşkil olunması;
- müxtəlif xidmət növləri və müvafiq arayış verə bilən məlumat mərkəzləri;
- qonaqlara iaşə xidməti göstərən kiçik restoran, kafe və ona bərabər tutulan obyektlər;

Gələn turistlərə yerli əhali tərəfindən xoş münasibətin olması onlarda məmnunluq hissləri yaradır.

Ölkəmizdə bütün bu qeyd olunanlar öz əksini tarixində, mədəniyyətində, qonaqpərvərliyində, habelə mətbəxinin zənginliyində tapır. Başlıcası odur ki, kənd yaşıl turizmi turistlərə və istirahətə gələnlərə mükafat formasında pullu xidmət göstərməklə yerli əhalinin vəsaiti hesabına yaradılır. Kənd yaşıl turizminin bir xüsusiyyəti də ondan ibarətdir ki, belə fəaliyyət növünün yaradılmasında böyük turist firmalarının fəaliyyəti və ya iri həcmli maliyyə vəsaiti tələb olunmur. Müxtəlif turist və şəxslərin, eyni zamanda kəndli fermer təsərrüfatlarının birləşməsi kifayət edir.

**Müjkan MƏMMƏDZADƏ,**
***Mədəniyyətşünaslıq üzrə EMM-in Turizm təhsili bölməsinin müdiri, ABU-nun baş müəllimi***